AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ 1930

**Təsdiq edirəm**

**“Maliyyə və audit”** kafedrasının müdiri
i.e.d., prof.Əvəz Ələkbərov
11 sentyabr 2025-ci il

# “Maliyyə menecmenti” fənni üzrə işçi tədris proqramı

(Sillabus)

## I.Fənn haqqinda məlumat

| | |
|---|---|
| Fənnin kodu: | 00526 |
| Fənnin növü: | əsas |
| Tədris ili: | 2025/2026 |
| Fənnin tədris semestri: | payız |
| Fakultə | Maliyyə və mühasibat |
| Qrup | 454, 456,458, 460,462,464,466 |
| Kafedra | Maliyyə və audit |
| Tədris yükü | 30/30 |
| Kredit sayi | 4 |

## II.müəllim haqqında məlumat

| | |
|---|---|
| Fənni tədris edən müəllim: | Dos.B.Ş.Qurbanov |
| E-mail ünvani | Dos. Həkimova Y.A. |
| İş telefonu: | bqurbanov52@gmail.com |
| | Yegana_Hakimova@unec.edu.az |
| | 0(12)4924004 |
| **Tələbələr üçün qəbul vaxtlari** | I, III günlər |

## III. Fənnin təsviri:

“Maliyyə menecmenti” fənni bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin maliyyə resurslarının idarə edilməsi haqqında zəruri bilikləri verir. Bu fənn həmin subyektlərin qarşısında duran ən prioritet məsələlərdən birinin - maliyyə resurslarının səmərəli idarə olunmasının öyrənilməsini həyata keçirir.

Maliyyə menecmentini yaranması maliyyə resurslarının bazar iqtisadiyyatında oynadığı müstəsna rolla bağlı olmuşdur.

“Maliyyə menecmenti” fənni Azərbaycan Respublikasında “Maliyyə” ixtisasının tədris planına bakalavr pilləsində iqtisadçı kadrların hazırlanması prosesində tədris olunan əsas fənnlərdən biridir.

“Maliyyə menecmenti” fənninin strukturu təsərrüfat subyektlərinin maliyyə fəaliyyətinin səmərəli idarə edilməsi ilə bağlı məsələlərin qarşılıqlı əlaqəsi nəzərə alınmaqla qurulmuşdur. Maliyyə menecmentinin mahiyyəti,, informasiya təminatı, maliyyə planlaşdırılması və proqnozlaşdırılması, kapitalın dəyəri, idarə edilməsi, maliyyə mənbələrinin idarə edilməsi, maliyyə menecmentinin beynəlxalq aspektləri və digər mövzuların tədrisi nəzərdə tutulmuşdur.

## IV. Fənnin məqsədi və vəzifələri:

Fənnin əsas **məqsədi** müasir şəraitdə maliyyə menecmenti sahəsində səmərəli fəaliyyət göstərə bilən yüksəs səviyyəli ixtisaslı kadrların hazırlanmasıdır.

Fənnin tədrisi qarşısında duran **vəzifələr** aşağıdakılardır:

- maliyyə menecmentinin məzmun və əhəmiyyətinin öyrənilməsi;
- menecmentin informasiya bazasının, maliyyə alətlərinin, maliyyənin idarə edilməsi sisteminin öyrənilməsi;
- maliyyə mühitinin dəyərləndirilməsinin, maliyyə planlaşdırılması və proqnozlaşdırılmasının öyrənilməsi;
- maliyyə risklərinin və investisiya fəaliyyətinin idarə edilməsinin öyrənilməsi;
- dövriyyə kapitalının idarə olunmasının və kapitalın dəyərinin qiymətləndirilməsinin öyrənilməsi;
- maliyyə menecmentinin strategiyası və taktikasının təmin olunmasının, müəssisələrin maliyyə təhlilinin aparılmasının öyrənilməsi;
- maliyyə menecmentinin beynəlxalq aspektlərinin öyrənilməsi və s.

## V. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- maliyyə menecmentinin nəzəri metodoloji əsaslarını, terminologiyasını, alətlərini;
- kəmiyyət və keyfiyyət metodlarından istifadə etməklə biznes aktivlərinin qiymətləndirilməsini, investisiyalar haqqında məsləhətlərin verilməsini;

- maliyyə mənbələrinin və maliyyələşmənin müxtəlif yollarını müəyyən etməyi;
- biznes və maliyyə riski ilə bağlı fəaliyyətin müxtəlif strategiyalarının təhlil edilərək uyğun tövsiyələr hazırlamağın idarə edilməsini;
- müəssisələrin gəlirləri, xərcləri və mənfətinin, biznesin yenidən təşkili, vergilərin, dövriyyə kapitalının idarə edilməsini.

**Bacarmalıdır:**

- maliyyə menecmentinin təsərrüfat subyektinin fəaliyyəti ilə qarşılıqlı əlaqəsinin araşdırılmasını;
- alternativ maliyyə mənbələrinin və maliyyələşmənin müxtəlif yollarının müəyyən edilməsi və qiymətləndirilməsini;
- maliyyə qərarlarının qəbul edilməsində tənzimləmə, idarəetmə, etika sahəsindəki dəyişiklikləri nəzərə almağı və zəruri tövsiyələr hazırlamağı;
- menecmentin beynəlxalq aspektlərini dəyərləndirməyi.

## VI. Fənnin mühazirə mövzuları

Fənn 15 mühazirə mövzusundan ibarətdir.

**1.** Maliyyə menecmentinin mahiyyəti, nəzəri anlayışları və təşkili əsasları
**2.** İnformasiya bazasının və maliyyə alətlərinin müəssisənin idarə edilməsində rolu.
**3.** Müəssisədə maliyyənin idarə olunması sistemi və pul axınlarının idrə edilməsi
**4.** Maliyyə mühiti: maliyyə bazarlar, maliyyə institutları, fond birjası və faiz dərəcələri.
**5.** Maliyyə planlaşdırılması və proqnozlaşdırılması.
**6.** Maliyyə risklərinin idarə olunması.
**7.** Müəssisənin investisiya fəaliyyətinin idarə edilməsi
**8.** Müəssisənin dövriyyə kapitalının idarə edilməsi
**9.** Kapitalın dəyəri və strukturu, dividend siyasəti.
**10.** Maliyyələşmə mənbələrinin seçilməsinin optimallığı
**11.** . Maliyyə menecmentinin strategiyası.
**12.** Maliyyə menecmenti sistemində təhlil və qiymətləndirmə
**13.** Gəlirlərin, xərclərin, mənfəətin və rentabelliyin idarə edilməsi.
**14.** Müəssisə maliyyəsinin antiböhran şəraitində idarə edilməsi
**15.** Maliyyə menecmentinin beynəlxalq aspektləri

## VII. Prerekvizitlər

yoxdur

## VIII. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin

yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mətbuatdan (internet resurslarından) göturulmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzkirasinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalasdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edecəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Əsas dərslik və ədəbiyyat


1. AR Vergi Məcəlləsi, Bakı,2000
2. Maliyyə hesabatlarının Beynəlxalq Standartları (İFRS), Mühasib.az/ifrs...
3. Atakişiyev M.C. və b. Maliyyə menecmenti,dərs vəsaiti, Bakı,2010
4. Abbasov S.A. Maliyyə menecmentinin təşkili problemləri. Doktorluq dissertasiyasının atoreferatı, Bakı, İqtisad Universiteti, 2016
5. "Maliyyə risklərinin idarə edilməsi" Ə.Ə.Ələkbərov, T.T.Qurbanova,G.Q.Məmmədova, Ş.M.Əlicanova. Bakı 2023.
6. "Maliyyə bazarları" Ə.Ə. Ələkbərov, Z.F.Məmmədov, A.T. Hüseynova. Bakı 2020
7. Abbasov S.A. Maliyyə menecmenti: təşkili və təkmilləşdirilməsi problemləri (Monoqrafiya), Bakı "Elm və təhsil", 2009
8. Hacıyev Ş.H., Bayramov Ə.İ. Dünya iqtisadiyyatı, dərslik, Bakı, 2012
9. Səhmdarlıq işi. Dərslik, Bakı, "İqtisad Universiteti, 2010
10. Долгих Ю.А. Бакунова Т.В. и др. Финансовый менеджмент: учебное пособие, Изд. Уральского Ун-та, 2021
11. E.M.Roqova, E.A.Tkaçenko Финансовый менеджмент. Moskva 2015


Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron-kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqları, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

## XI. Mövzunun məzmunu və tədris tematik bölgüsü

| Həft | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Maliyyə menecmentinin mahiyyə nəzəri anlayışları və təşkili əsasları. | 1. Maliyyə menecmentinin mahiyyəti və məzmunu.<br>2.Maliyyə menecmentinin əsas vəzifələri.<br>3. Maliyyə menecmenti barəsində nəzəri baxışlar<br>4. Maliyyə menecmentinin konseptual əsaslarının işlənilməsi.<br>5. Maliyyə menecmentinin təşkilin əsasları | Abbasov S Maliyyə menecmentin təşkili problemləri. Doktorluq dissertasiyası atoreferatı, Ba İqtisad Universiteti, 2016 |
| 2 | İnformasiya bazasının və maliyyə alətlərinin müəssisənin idarə edilməsində rolu. | 1. Maliyyə alətlərinin mahiyyəti və əsas əlamətləri.<br>2. Maliyyə menecmentinin informasiya bazasını təşkil edən göstəricilər sistemi<br>3. Maliyyə hesabatı anlayışı və onun göstəriciləri.<br>4. Daxili və xarici hesabat istifadəçiləri.<br>5. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | Maliyyə hesabatlarının Beynəlxalq Standartları (İFRS), Mühasib.az/ifrs.. |
| 3 | Müəssisədə maliyyənin idarə olunması sistemi. | 1. Müəssisədə maliyyənin idarə olunması sisteminin əsas elementləri<br>2. İdarəetmə subyektinin baza elemetlərinin müəyyənləşdirilməsi.<br>3. İdarəetmə obyektinin elementləri<br>4. Əsas maliyyə problemlərinin həlli istiqamətləri.<br>5. Maliyyənin idarə olunması sisteminin kompleks sisteminin formalaşdırılması.<br>6. Pul axınlarının idarə edilməsi. | Səhmdarlıq i Dərslik, Bak "İqtisad Universiteti, 201 |
| 4 | Maliyyə mühiti: maliyyə bazarlar, maliyyə institutları, fond birjası və faiz dərəcələri. | 1. Maliyyə bazarlarının mahiyyəti və təsnifatı<br>2. Maliyyə bazarlarının tipləri<br>3. Maliyyə institutlarının kapitalın cəlb edilməsi prosesində iştirakı.<br>4. Faiz dərəcəsi - kapitala təklif və tələb funksiyası kimi. | "Maliyyə bazarları" Ə.Ə. Ələkbərov, Z.F.Məmmədov, A.T. |

| | | | |
|---|---|---|---|
| | | 5. Faiz dərəcələrinin səviyyəsinə təsir edən amillər. | Hüseynova. Bakı 2020 |
| 5 | Müəssisələrdə maliyyə planlaşdırılması və proqnozlaşdırılması. | 1. Maliyyə planlaşdırılmasının təyinatı və mərhələləri.<br>2. Budcələşmə - maliyyə planlaşdırılmasının aləti kimi.<br>3. Maliyyə göstəricilərinin proqnozlaşdırılmasının əsasları.<br>4. Maliyyə göstəricilərinin proqnozlaşdırılmasının metodları.<br>5. Biznes-planlaşdırma çərçivəsində maliyyə inkişafı modellərindən istifadə olunması. | Abbasov S Maliyyə menecmentinin təşkili probleml Doktorluq dissertasiyasının atoreferatı, Bа İqtisad Universit 2016 |
| 6 | Maliyyə risklərinin idarə olunması. | 1. Maliyyə riski idarəetmə obyekti kimi.<br>2. Maliyyə risklərinin növləri.<br>3. Maliyyə risklərinin idarə olunması metodları.<br>4. Risk – menecmentin yerinə yetirdiyi funksiyalar.<br>5. Maliyyə risklərinin azaldılması üsulları. | “Maliyyə risklərinin idarə edilməsi” Ə.Ə.Ələkbərov, T.T.Qurbanova,( .Q.Məmmədova, Ş.M.Əlicanova |
| 7 | Müəssisənin investisiya fəaliyyətinin idarə edilməsi | 1. İnvestisiyanın iqtisadi mahiyyəti və təsnifatı<br>2. Müəssisənin investisiya fəaliyyətinin strateji məqsədlərinin seçilməsi.<br>3. Maliyyə investisiyasının idarə edilməsi.<br>4. İnvestisiya layihələrinin qiymətləndirilməsi meyarları.<br>5. İnvestisiya portfelinin formalaşması xüsusiyyətləri. | Səhmdarlıq is Dərslik, Bak “İqtisad Universiteti!, 2010 |
| 8 | Müəssisənin dövriyyə kapitalının ida edilməsi . | 1.Dövriyyə kapitalı və onun idarə edilməsinin vəzifələri<br>2.Müəssisənin dövriyyə kapitalına olan tələbatı<br>3.Debitor və kreditor borc- larının idarə edilməsi<br>4.Pul axınlarının hərəkətinin təhlili və qiymətləndirilməsi<br>5.Dövriyyə vəsaitlərinin maliyyələşdirilməsi strategiyası | Maliyyə hesabatlarının Beynəlxalq Standartları (İFRS), Mühasib.az/ifrs.. |
| 9 | Kapitalın dəyəri və strukturu. Divider siyasəti. | 1. Kapitalın iqtisadi mahiyyəti və funksiyaları.<br>2. Kapitalın qiyməti - maliyyə qərarlarının qəbulunun | Atakişiyev M.( və b. Maliyy menecmenti,dərs vəsaiti, Bakı,201 |

| | | | |
|---|---|---|---|
| | | əsaslandırılmasının indikatoru kimi.<br>3. Maliyyə leveridji və onun qiymətləndirilməsi.<br>4. Kapitalın rasional strukturunun formalaşması.<br>5. Səhmdar cəmiyyətin divident siyasətinin mərhələlərı. | |
| 10 | Maliyyələşmə mənbələrinin seçilməsinin optimallığı | 1.Müəssisənin fəaliyyətinin maliyyələşdirilməsi mənbələrinin mahiyyəti və təsnifatı.<br>2. Muəssisə fəaliyyətinin maliyyələşdirilməsi üsulları.<br>3. Qiymətli kağızların emissiyası və yerləşdirilməsi.<br>4. Maliyyə lizinqi.<br>5. İcarə maliyyələşməsi. | Atakişiyev M.( və b. Maliy menecmenti,dərs vəsaiti, Bakı,201 |
| 11 | Maliyyə menecmentinin strategiyası | 1. Müəssisənin strategiyasının işlənilməsinin nəzəri əsasları.<br>2. Müəssisənin maliyyə strategiyasının işlənib hazırlanması prinsipləri.<br>3. Müəssisənin maliyyə resurslarının formalaşması strategiyası.<br>4. Müəssisənin maliyyə təhlükəsizliyinin təmin edilməsi strategiyası.<br>5. Maliyyə strategiyasının reallaşdırılmasının idarə olunması. | Abbasov S Maliyyə menecmentinin təşkili probleml Doktorluq dissertasiyasının atoreferatı, B İqtisad Universit 2016 |
| 12 | Maliyyə menecmenti sistemində təhli və qiymətləndirmə | 1. Maliyyə menecmenti sistemində təhlilin rolu və əhəmiyyəti.<br>2. Maliyyə təhlilinin kompleks aparılması metodologiyası və metodikası.<br>3. Müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin təhlili metodları və üsulları.<br>4. Pul vəsaitlərinin hərəkətinin təhlili.<br>5. Müəssisənin maliyyə faliyyətinin qiymətləndirilməsi | Maliyyə hesabatlarının Beynəlxalq Standartları (İFRS), Mühasib.az/ifrs.. Atakişiyev M.( və b. Maliy menecmenti,dərs vəsaiti, Bakı,201 |
| 13 | Gəlirlərin, xərclərin, mənfəətin və rentabelliyin idarə edilməsi. | 1. Gəlir anlayışı, onun mahiyyəti və növləri.<br>2. Xərc anlayışı, onun mahiyyəti və məzmunu.<br>3. Mənfəət anlayışı və onun müəyyənləşdirilməsinə yanaşmalar | Maliyyə hesabatlarının Beynəlxalq Standartları (İFRS), Mühasib.az/ifrs |

| | | | |
|---|---|---|---|
| | | 4. Mənfəətlilik və rentabeliliyin idarə olunması.<br>5. Maliyyə menecmenti sistemində uçot siyasəti və vergi planlaşdırılması. | |
| 14 | Müəssisələrin maliyyəsinin antiböhran şəraitində idarə edilməsi. | 1. Müəssisə maliyyəsinin antiböhranlı idarə edilməsinin mahiyyəti və prinsipləri<br>2. Müəssisənin böhran vəziyyətinə düşməsinə təsir edən amillər.<br>3. Müəssisənin maliyyə vəziyyətinin pisləşməsini xarakterizə edən göstəricilər<br>4. Müflisləşmə və iflas haqqında Azərbaycan Respublikasının qanunu.<br>5. Müəssisənin maliyyəsinin sağlamlaşdırılması üçün tətbiq edilən taktikanın növləri | Atakişiyev M.( və b. Maliy menecmenti,dərs vəsaiti, Bakı,201 |
| 15 | Maliyyə menecmentinin beynəlxa aspektləri. | 1.Müəssisənin beynəlxalq maliyyə fəaliyyətinin mahiyyəti.<br>2. Beynəlxalq ödəmələrin növləri.<br>3. Beynəlxalq hesablaşma formaları.<br>4. Müəssisənin xarici – iqtisadi fəaliyyətinin bank kreditləşməsi.<br>5. Şirkətlərin beynəlxalq maliyyələşmə formaları | Hacıyev Ş.H Bayramov Ə. Dünya iqtisadiyyatı, dərslik, Bak 2012 |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal : 4,5 bal
- 8 bal :4baI
- 7 bal:3,5bal
- 6 bal:3 bal
- 5 bal :2,5 bal
- 4bal:2bal
- 3 bal : 1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir.

B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah;

b - seminar dərslərində alınan müxtəlif ballar

s - semestr ərzində verilən cavabların sayı

m - aktivlik bahna aynlan maksimal bal;

l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

## XIII. Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIV. Fənn üzrə ara və aralıq qiymətləndirmə

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı tələbəyə 3 sual, yekun qiymətləndirmə zamanı isə təhsilalanlara 5 sual təqdim olunur.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” - F

51-60 bal - “qənaətbəxş” - E

61-70 bal - “kafi” - D

71-80 bal - “yaxşı” - C

81-90 bal - “çox yaxşı” - B

91-100 bal - “əla” - A

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.